Bakıda həyata keçirilən “Port Baku” layihəsi çərçivəsində ikinci çoxmərtəbəli qüllənin (“Tower”) tikintisinə başlanılıb.

Neftçilər prospektindəki kompleksin sol tərəfində, dəmir yolu xəttinin kənarında (Yusif Səfərov küçəsi istiqamətində) inşa olunacaq kompleks "Liman Tower" adlanacaq. İlkin məlumatlara görə, “Liman Tower”in (Liman qülləsi) “Marriott Absheron” mehmanxanası ilə “Empire Tower” arasında olan ərazidə tikiləcək. Xatırladaq ki, "Liman qülləsi" layihəsi "DSA Architects International" memarlıq bürosuna məxsusdur. Layihənin digər adı "Residential Apartment Tower"dir. Sözügedən yaşayış kompleksindəki mənzillərin lüks təmirli satılacağı bildirilir



